# "Adəmdən Xatəmə yol gedən alma..."

## Qardaşxan Əzizxanlıya özünü yeddinci qatda hiss etdirən yaradıcılıq gecəsinin yeddi məqamı

***(Do-Dominus-Allah; Re-rerum-materiya; Mi-miraculum-möcüzə; Fa-familias planetarium-yeddi planet; Sol-Solis-Günəş; La-Lactea via-Kəhkəşan; Si-siderae-səma).***

*Düzü, uzun illərdi Lənkəranda bu cür yaradıcılıq gecəsinin keçirilib-keçirilmədiyi yadımda deyil. Əslində, yaşımdan,-canınıza sağlıq, yaşım da az deyil,- analoji məclisin şahidi olmamışdım. Amma, nə ola, daha belə tədbirlərin keçirilməsi, İlqar Fəhminin sözü olsun, ənənə ola.*

*Qardaşxan Əzizxanlının 60 illik yubileyi münasibətilə Heydər Əliyev mərkəzində keçirilən yaradıcılıq gecəsinə və eyni zamanda,"İlkim də sən, indim də sən, sonum sən" adlı son şeirlər kitabının təqdimatına müxtəlif yaş təbəqələrindən olan poeziya həvəskarları qatılmışdı.*

*Əvvəlcə şairin müəllifi, layihə rəhbəri olduğu kitablar və mətbuat materiallarından ibarət "Qardaşxan Əzizxanlı-60" adlı sərgiyə baxdıq, sonra onun sözlərinə Asif Kərimovun bəstələdiyi və müğənni İlqar Muradovunun ifasında proyektor ekranına verilən "Yaşayırıq" mahnısını dinlədik. Bunlardan və AzTV-nin "Qaşla göz arasında" adlı qısametrajlı filmindən fraqmentdən, habelə Xalq Şairi Məmməd Arazın səbəbkarla bağlı dediyi: "O, görüm, duyum şairidir... Sözünü öz ürəyindən alan şairdir... Qardaşxan dəmirçidir. Körpü inadı döyən dəmirçi... Döşünü yaman sellərə verən dəmirçi..." kimi dəyərli sözlər səslendirildən sonra bir şair kimi Qardaşxan haqqında onu yaxşı tanımayan görüş iştirakçılarında belə artıq müəyyən təəssürat yarandı.*

*Bu tədbir, fikrimcə, Qardaşxanın, təkcə kitabının yox, həm də, bir vətəndaş, insan olaraq, öz təqdimatı oldu və o məqamda, nədənsə, ağlıma "Vətən kiminə isti qucaqdır, kiminə soyuq bucaq" deyimi gəldi,-həmin gün, vətən Qardaşxan üçün, şübhəsiz, isti qucaq idi.*

*Onu da deyim ki, tədbir "Dilimiz sərvətimizdir" və "Azərbaycan poeziyası və dilimizin saflığının qorunması" devizi ilə keçirildi.*

### I not

*Allah, şükür birliyinə,*
*Bu yolu mənə vermisən;*
*Bu qanada layiq bilib,*
*Bu qolu mənə vermisən.*

**Qardaşxan**

### I təqdimat

**Azərbaycan Yazıçılar BirliyininYaradıcılıq məsələləri üzrə katibi şair-kinodramaturq İlqar Fəhmi** məclisi: "Əslində, Qardaşxan müəllimlə 60 yaş bir az düz gəlmir, çünki ruhən cavandır və onun tədbirlərində həmişə fərqli bir aura olur. Ümumiyyətlə, Qardaşxan müəllim fərqli formatları sevir. Onun görüşləri həmişə bir ideya, ümumiləşdirici bir motiv altında keçirilir. Enerjililiyi, çevikliyi də diqqətdən qaçmır. Yeri gəlmişkən, şairlər içində elə bir adam tanımıram ki, əlbəyaxa döyüş növü üzrə qara kəmər sahibi olsun" sözləri ilə açarkən mən artıq öz-özlüyümdə fərqli bir törənlə qarşılaşacağımı kəsdirdim.

İ.Fəhmi çıxışına davam edərək dedi: "Azərbaycan Yazıçılar Birliyi və M.F.Axundzadə adına Milli Kitabxananın birgə təşkilatçılığı ilə Qardaşxan Əzizxanlının Bakıda düzənlənən yubiley tədbiri və bu son kitabının təqdimat mərasimi "Bu gün gərək hər animız vətən desin!" devizi altında keçirilirdi. Bugünkü tədbiri də Qardaşxan müəllim Azərbaycan dili ilə bağlayıb. Başqa sözlə, bugünkü oxunacaq şeirlərin, olacaq söhbətlərin, bir sözlə, təqdimatımızın, obrazlı desək,-gerbi, bayrağı, sərhədi ana dilimizdir. Yəni Qardaşxan müəllim tədbiri öz yubileyindən əlavə, həm də, Azərbaycan dilinin gözəlliyinin təqdimi, təbliğatı fonunda təsəvvür eləyib. Doğrudan da, poeziya dildən kənarda dərk edilən bir şey deyil. Poeziya müstəvisindəki hər hansı poetik detal, maraqlı obraz-bütün poetik gözəlliklər, xüsusən də, ədəbi dil üçün bəzən, hətta arxetipləşən yeni tapıntıdır. Poeziyanın yeniləşməsinə çalışan şairlər öz növbəsində öz ana dilinə xidmət edirlər. Qardaşxan da şeirlərini, sadəcə, öz düşüncələrini çılpaq şəkildə üzə çıxartmaq üçün yazmır. Poeziyamızı və ana dilimizi qoşa qanad kimi inkişaf etdirmək istəyi onun şeirlərində açıqaşkar özünü hiss etdirir".

İ.Fəhmi sonra Qardaşxandan son kitabını təqdim etməsini xahiş etdi və əsasən gənclərdən ibarət olan auditoriyaya üzünü tutub: "Qoy kitab haqqında özü danışsın, çünki orada bir çox elementlər, simvollar var ki, onun öz dilindən eşitmək maraqlı olar,-"dedi.

### II təqdimat

**Qardaşxan** görüşə gələnlərlə ünsiyyətə ilkin olaraq bu fikirlərlə başladı: "Mən sizin iştirakçısı olduğunuz bu məclisdə indiki anlarda göyün yeddinci qatındayam və bu qatdan içimdəki Təbriz də, Xankəndi də əl içi kimi görünür. Bugünkü auditoriya sanki mənə dünyaları bağışlayıb.

Poeziya ilk növbədə dil hadisəsidir və dilimizin ən etibarlı gen daşıyıcısıdır. Hansı dildə düşünürsənsə, poetik təfəkkür həmin dildə obrazlara çevrilir. Yeni üslubun, obrazlılığın əsasında dil "materialı" dayanır. Həyat və insan barədə düşünərkən dərin mənalar məhz dilin qatları hesabına üzə çıxır.

...Dilin lüğət fonduna müəyyən mənada bank hesabı kimi baxmalıyıq.

...Nəcib məqsədlərə xidmət edən şeir dili süni, saxta olmur. Əsl şeir də, eləcə, rahat nəfəs alıb-verdiyin kimi oxunur,-sadə, qatqısız, amma poetik yüklü... Belədə, nə biz dili aldadırıq, nə dil bizi...

"İlkim də sən, indim də sən, sonum sən"-bu poetik müraciət təkcə ilk məhəbbətə, doğma yurda, böyük sənətə ünvanlanmayıb, eyzən ana dilə yönəli anddır..."

Bunlar isə mənim müşahidələrimdir; poetik toplunun orijinal xüsusiyyətlərindən biri də onun, eyni zamanda, məzmunca fərqlənməyən iki adla nəşr olunmasıdır: kitab üz qabığında:

"İlkim də sən, indim də sən, sonum sən", arxa cilddə: "İlkimdəsən, indimdəsən, sonumsan" adı ilə oxuculara təqdim edilib. Burada üç kitabdan-"Gözlə qaş arasında", "Otuz yeddini keçəndə", "Ürəyin baxdığı yerdən" nəşrlərindən seçmələr toplanıb. Son kitabın ikinci adı da üç sözdən ibarətdir,-simmetriya pozulmayıb və kitaba müəllifin üç dilə tərcümə edilmiş şeirlərindən nümunələr salınıb...

Qardaşxan butaşəkilli "İn-Yan"da, kitabın üz qabığındakı "Koroğlunun Nigarı" rəsmində (burada qadının üzü- vətənin, saçları sərhədlərin rəmzidir və bu saç içi-sərhəd boyu çapan atlılar yurdu qoruyur) və "Poeziya"sözünün alındığı oval cizgidə, cildin içindəki bu dəfə ürəkşəkilli "İn-Yan"da 60 rəqəminin əks olunduğunu göstərdi və əlavə etdi ki, 60-ın güzgü əksi isə 90-dır, bu da altmışımda üç övladımın yaşının cəmidir. İnsanın tərbiyə verdiyi övladı həyatda onun güzgüsüdür.

Bütün bunlar gənc rəssam Gilanın qrafik fırçasında öz təcəssümünü tapmışdı...

Kitabın ilk bölümü türk qızına, ikinci hissəsi təbrizli qıza yazılmış misralarla süslənib. Bu isə birmənalı olaraq genetik türk və Cənub sevgimizə bir işarətdir. ...Qardaşxan son kitabının daha bir neçə fəlsəfi-simvolik xassəsindən danışdı...



### II və III notlar

İ.Fəhmi sonra qeyd etdi ki, bir neçə ildir Qardaşxanın təşkilatçılığı, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu və Azərbaycan Yazıçılar Birliyinin dəstəyi ilə "Məmməd Araz Poeziya günü" layihəsi çərçivəsində Azərbaycanın rayonlarında, eləcə də, Bakıda unudulmaz şairimizə həsr olunmuş silsilə tədbirlər-xatirə gecələri, poeziya axşamları keçirilir. Bu tədbirlərin ağırlığının əsas hissəsi Qardaşxanın üzərinə düşür və əmin olduğunu bildirdi ki, Məmməd Araz Poeziya günləri bundan sonra da davam edəcək, çünki Qardaşxanın o böyük şəxsiyyətə sevgisi sonsuzdur. Qardaşxan məşhur fransız düşünəri G.Le Bonun "Xalq çox şeyi itirə bilər, bütün mümkün faciələrə məruz qala bilər, amma yenə ayaq üstə qalxmağı bacarar. Əgər o öz ruhunu itirsə, demək hər şeyini itirib və o bir də heç vaxt ayaq üstə dura bilməz" fikrini misal çəkərək, niyə "Məmməd Araz Poeziya günü" keçirmək qərarına gəlməsinin səbəbini açıqladı: "Məmməd Araz xalqın ruhunu itməyə qoymayan sənətkardır. "Vətən yolunda birinci ölmək" düşüncəsinin aliliyini Məmməd Araz ön plana çəkib. Bu mənada Məmməd Araz yaradıcılığı, həm də bir Qarabağ simfoniyasıdır".

O, isveçrəli filosof Karl Yunqun: "Madam ki, əksliklər heç vaxt özünün şəxsi səviyyəsində birləşmirlər, demək həmişə daha yüksək "üçüncü" müstəvi tələb olunur ki, hissələr orada birləşsin" fikrini də misal gətirərək, həmin yüksək "üçüncü" müstəvi rolunu ədəbiyyatımızda ən çox Məmməd Araz poeziyasının oynadığını bildirdi: "Bölünmüş Azərbaycan "3-cü müstəvidə"-Məmməd Araz yaradıcılığında birləşir. Bu poetik müstəvidə Quzeyli Güneyli vətən bütövləşir".

### III təqdimat

**Unudulmaz şairimiz Məmməd Arazın qızı "Ədalət" qəzetinin Baş redaktoru, əməkdar jurnalist İradə Tuncay** tribunaya dəvət olundu. İradə xanım: "Mən tədbirlərdə iştirak etməyə meyilli deyiləm,-dedi,-amma söz adamlarının tədbirlərinə həvəslə gedirəm. Qardaşxanın tədbirinə gələndə də, təbii ki, yenə həmən həvəs vardı, üstəlik burada bir Qardaşxan amili də var idi. Mən Qardaşxanı, nə bilim, vallah, yəqin bir qırx ilə yaxındır tanıyıram. Biz universitetdə bir yerdə oxumuşuq. O, bir kurs bizdən yuxarıda oxuyub. Ancaq mən onu ən çox atamın gənc dostu kimi tanımışam, həmişə atamın yanında görmüşəm. O, həmişə atama dəstək olub. Bilirsiniz, Qardaşxanın atama münasibəti "dəstək olmaq" sözündən də böyükdür. Onun atama münasibətində, hardasa, bir mənəvi övladlıq hissi var. Atamın ehtiyacı olan günlərində, redaktə məsələlərində, daha, nələrdəsə, Qardaşxanı həmişə atamın yanında görmüşəm. Görünür, bu münasibət də aramızda olan ünsiyyətə təsir edib, sirayət eləyib.

Mənim Qardaşxanda ən qiymətləndirdiyim keyfiyyəti nədir? Qardaşxan bu gün hər cür əl uzatmalardan, dil uzatmalardan qorumağa çalışdığımız bütöv Azərbaycan anlayışının bariz nümunəsidir .Yəni Azərbaycançılıq ideyasının... Bu müstəvidə hamını birləşdirə bilən obrazdır Qardaşxan. O, bütöv Azərbaycanın, o itirdiyimiz sərhədləriynən, torpaqlarıynan və yaxud da yenidən birləşdirməyə çalışdığımız torpaqlarımızın bir obrazıdır məndən ötrü. Ona görə də mənə elə gəlir ki, Qardaşxanın adı çəkilən yerdə mütləq bir Azərbaycan obrazı yaranır, mütləq! Mən belə fikirləşirəm... İnsanların ona münasibəti də bu müstəvidən, bu rakursdandır. Bu mənada Qardaşxan kimdənsə, nəyi isə xahiş edəndə, mütləq hamı canla-başla yerinə yetirməyə çalışır. İndi 60 yaşı olub, deyirik... Amma Qardaşxan ruhən, elə fiziki cəhətdən də, o yaşını göstərməyən adamdır. Mənə elə gəlir hələ indən belə çox illər, sağlıq olsun, onun varlığını, güclü nəfəsini ədəbiyyatımızda da, xalqın ruhunda da hiss eləyəcəyik.

### IV təqdimat

**Millət vəkili, yazıçı Aqil Abbas** Lənkəranla bağlılığından danışdı: "Təsadüfi deyil ki, "Dolu" romanında yalnız Lənkəranın adını çəkmişəm. "Dolu" romanı bədii əsərdir. Bildiyiniz kimi bədii əsər sənədi olmur, real adamlar, həyatda olanlar öz adları ilə orada iştirak etmir. Amma mən həm romanda, həm filmdə məkan olaraq yalnız Lənkəranın və Lənkərandan olan bir yeniyetmə gəncin adını olduğu kimi saxladım. Təsəvvür edin, 17 yaşında bir yeniyetmə uşaq Lənkərandan könüllü gəlib, Ağdamda vuruşurdu. Sonra o, şəhid oldu. Atası gəldi... çox təəssüf ki, sonrakı taleyini bilmədim bu adamın,-müharibə gedirdi, baş qarışıq idi. Hamı elə bildi, ata oğlunun cənazəsini aparacaq öz rayonuna. Amma atası məsciddə dedi ki, oğlum harada ölübsə, orada da dəfn olunmalıdı, o, bu torpaq uğrunda canını verib, Lənkərana niyə aparmalıyam?! Ağdamda bir şəhid qəbiristanlığı var idi, orada dəfn elədilər həmin uşağı. Ata oğlunun silahını istədi. Gətirib verdilər. Soruşdu: "Mənim oğlum harada vuruşurdu?" Dedilər, filan taburda, filan səngərdə... Getdi girdi o səngərdə vuruşmağa... Bu hadisə mənə o qədər güclü təsir elədi ki, dedim, bunu romana olduğu kimi, öz adı ilə salacağam. Romanda bundan başqa gerçək şəhər, qəhrəman adı yoxdu. Kinoya da saldıq o hadisəni. Dedim yəni, qoy görsünlər vətənini, xalqını, millətini sevən belə insanlar var burada, başqalarına da görk olsun. Lənkəran, həm də, qohumdu bizə, qohumluğumuz da çoxdu.

**Deyirlər 60... amma mən, vallah, Qardaşxanı elə bil 200-300 ildi tanıyıram. Qardaşxanın bir qardaşı da var-Məmmədxan o da şair təbiətli bir insandı əslində, intəhası o getdi hüquq-mühafizə orqanlarında işlədi. Vaqif Bəhmənlinin dostuydu. Üzr istəyirəm, bayaq İradə xanım dedi, Qardaşxan bütöv bir Azərbaycan simvoludu... Şairliyin də gözəl ola, dostluğun da gözəl ola, insanlığın da gözəl ola... Bu adamın ürəyində kiməsə bir damcı kin olsun, kiminsə paxıllığını çəksin, kiməsə badalaq vurmaq istəsin... mümkün deyil. Bu adamı allah o qədər saf, təmiz yaradıb ki... onu da o verib poeziyaya, dostluğa. Başqasının yolunda daha çox əziyyət çəkir, nənki öz yolunda. Qardaşxan, düzdü, Məmməd Araz üçün özünü çox əsir-yesir eləyir, sevir onu... Mən də şairlər var ki, sevirəm... Vaqif Cəbrayılzadəni sevirəm, amma özümü onunçün əsir-yesir eləmirəm. Amma Qardaşxan sevdiyi adamın yolunda özünü fəda eləyir. Yəni mürid kimi... bir saf insandı. Mən Qardaşxanı bir saf insan kimi sevmişəm. İndi də baxıram ki, nə qədər rəmzlərdən istifadə edib kitabında, kitab başdan-ayağa simvoldu, rəmzdi. O da onun, görünür, fəlsəfəni gözəl bilməyindəndir.**

**(ardı gələn sayımızda)**

**Qələmə aldı:**
**Əli AĞAZADƏ**